

# Canıyanan adam

**Hekayə**

*Əlisəfa Azayev*

O, olduqca qayğıkeş, canıyanan bir insan kimi yaddaşında qalıb, həmişə də beləcə xatırlayır. İlk tanışlıqları elə məhkəmənin həyətində olmuşdu. Oğlu prokurorluqda mülki qarovulçu işləsə də, hərdən onu əvəz edərdi. Özü Samur-Abşeron kanalına baxan işçilərdən biri idi. Köhnə mütəxəssislərdən sayılırdı. Təhsilli, ixtisaslı idi.

- Salam, müəllim.
- Salam... Necəsiniz?
- Şükür... Şükür Allahın böyüklüyünə. Hələ imkan verir, yaşayırıq.
- Amin... Təki həmişə belə olsun.
- Bilmək olmaz... Ömürdü də...

Sanki onun ürəyinə damıbmış. Ancaq hər görüşündə elə ibrətamiz söhbətlər edərdi ki. Deyərdi:

- Bəyəm bunu hakim görmür, gündüzün günorta vaxtı işıq yana-yana qalıb, su elə-belə axır.
- Bəli, belə olmamalıdı.

Həqiqətən də hakimin qapısı ağzındakı elektik lampası gecəli-gündüzlü yanmaqda idi. Orada bir söndürcü yox idi ki, işığı gündüzlər söndürəydilər.

Su krantı da onun kimi. Axırdı hey... Halbuki qəsəbədə küçə, yer vardı ki, günlərlə, həftələrlə su üzünə həsrət qalardılar. Su saathesabı verildiyi, təzyiq aşağı olduğu üçün bəzi məhəllələrə, çoxmərtəbəli evlərə çıxmazdı. Bir gün söhbət əsasında Adil kişi ona dedi:

- Bax, bu hakimi, ailəsini mən ölümdən qurtarmışam. Qonşu idik də...
- Necə olmuşdu ki?
- Mən həmişə səhərlər yuxudan erkən duranam. Elə lap səhər saar dörddə, beşdə... Saat altıya yatıb qalmaqdan acığım gələr. Saat yeddiyə yatıb qalsam özümü bağışlamaram.

Gülümsədi:

- Xoşum gəldi... Əla!..
- Əlbəttə, kişi səhər tezdən durmalıdı. Onda imkanlı, çörəkli olar. Atalar sözüdü ki, tezdən duranın ruzusunu Allah yetirər.
- Bəli...
- Hə... Yenə də beləcə səhər tezdən durmuşdum. Küçəyə çıxıb yenicə siqaret odlamışdım ki... Ciyərlərimə çəkdiyim təmiz hava da sanki boğazımda qaldı. Səksəndim, diksindim... Bu nədi, yolun o biri üzündən qonşuluqdan tüstü qalxırdı... Açığı əvvəl elə bildim ki, həyətdə yığılmış tör-töküntü odlanır. Bizdə də olur da, ağac-uğacı, əski-üskünü yığıb odlayırıq. Bəzən elə xəzəli, tör-töküntünü... Ancaq belə ocağı da bu vaxt qalamırdılar axı... Bəlkə axşamdan qalma ocaq idi, indi tüstülənirdi?..
- Ola bilər...
- Yox, demə elə zənnimdə yanılmamışammış. Birdən getgedə qatılaşan boz, qara tüstünü qığılcımlar, gur alov əvəz etdi. İstər-istəməz qonşuları köməyə səslədim:
- Bax da...

O ürəyini tutmuş halda sanki bir anlıq sözlərinə ara verdi. Sonra həmin ağır gərgin anları yaşayırmış kimi dedi:

- Nahaq demirlər ki, insanın gözəlliyi onun başqaları üçün yaşamasında, çalışmasındadı. Mən dərhal sanki "SOS" siqnalı versəm də, qapı-pəncərəni döysəm də, onları güclə oyada bildim. Az qalmışdı ki, ev bütünlüklə alışsın...
- Bəli, belə hallar çox qorxuludu...
- Qohum-qonşular gələndə hamı dəhşətdən yerində titrəyirdi. Ev də nə ev, rus sayağı tikilmiş taxta ev... Bir qığılcıma bənd idi də...

Özünü saxlaya bilməyib, onun sözünü kəsəsi, soruşası oldu:

- Axı necə olub ki, belə alınıb?
- Necə olacaq ki, Allah kəsməsin bu böyüklərin işini. Pul olanda elə bilirlər ki, hər şey bunlarındı, hər cür hərəkət edə bilərlər. O vaxtlar qazın təzyiqi aşağı, işıq zəif idi axı. Bu da hakim adamdı da. Başqaları kimi yaşaya bilməzdi axı. Təzə gücləndirici alıb gətiribmiş. Gecənin bir aləmi naqruzkaya-yüklənməyə, gərginliyə dözməyib alışıb da...
- Çox pis... Yenə şükür ki, siz tezdən durmuş, oyaq olmusunuz. Sizə minnətdar olmalıdırlar. Yoxsa ailəlikcə yanıb məhv ola bilərdilər.

O, özüməməxsus tərzdə gülümsəyərək dedi:

- Can qardaş, indi belə şeyləri çox az adam başa düşür. Elə o da... Yoxsa həbsdən qayıdandan sonra qurban kəsənd, şadyanalıq etdirəndə, qonşular kimi məni də dəvət edərdi də...

Onun bu sözlərindən sarsılmış, təsirlənmiş halda soruşdu:

- Doğrudan?! Doğrudan sizi dəvət etməmişdi?..
- Heç qurban payı da verməmişdilər.
- Daha bunu bilmirəm.

Bu söhbətdən sonra Adil kişini görməsə də, onunla olan söhbəti, dediklərini heç cür unuda bilmirdi. Bu insanlar niyə belədi? Niyə pisliyi yox, yaxşılığı tezcə unudurlar? Adil kişi isə bu ailəyə nəinki xeyirxahlıq etmiş, əsl xilaskar olmuşdu. Bircə anda alovlanmaqda olan evi, hay-küy salıb söndürə bilməsəydilər, onlar çətin xilas olardılar. Köhnə taxta ev ola, od ola... Belə vəziyyəti Allah heç kimə göstərməsin.

O, bir gün notariat konturuna gəldi. Mehribanlıqla görüşdülər, ona əyləşmək üçün yer göstərdi. Dedi:

- Can qardaş, bu evi özəlləşdirək də... İndi deyirlər ki, ailə üzvləri razılıq verməlidirlər ki, mənim adıma rəsmiləşsin.
- Düzdür.

Heyfsiləndi, başını bulaya-bulaya kövrək səslə dedi:

- Ancaq nə edim, arvad xəstələndi. Bakıda operasiya edildi. İndi də vəziyyəti yaxşı deyil. Nə qədər xərc-xəcalət çək, axırı da bu... Cəhənnəm pul, çəkdiyim əziyyət, ona yazığım gəlir... Yaman pis ağrınır... Bura çətin gələ bilər... Bəlkə yol verəsiniz...

Onu sakitləşdirərək dedi:

- Heç narahat olmayın. Gələ bilməz, özüm gedərəm. Heç özün əziyyət çəkmə, işin axırına yaxın uşaqlardan birini göndər, gedərəm.
- Axırı gör də... Elə bil ki, qardaşına kömək edirsən.
- Narahat olma, gedərəm.

Adil kişinin oğlanları da özü kimi mehriban, qayğıkeş, böyük-kiçik bilən insan adamlar idi. Ləzgi qanı öz təmizliyini göstərirdi.

O biri oğlunun "QAZ-31" maşını vardı. "Quşçuluq" fabrikində işləyirdi. Yolla gedəndə bir də görürdü ki, maşını yanında saxlayıb, təhkid edirdi ki, əyləşsin, onu aparsın. Ona deməkdən yorulmuşdu ki, piyada gəzməyi, hərəkət etməyi özü xoşlayır. O isə belə anlarda deyərdi:

- Əyləş, əmi... Mən sənin yanından necə keçib gedə bilərəm?
- Çox sağ ol. Atan necədi?..
- Yaxşıdı... Duası var...

Onun arxasınca gələndə, onlarda olanda da beləcə qayğıkeşlik, hörmət-izzət gördü, albalı mürəbbəsi ilə pürrəngi çayı içdi. Süfrə açıb, qonaq etmək istəsələr də razılaşmadı. Onu daha çox narahat edən xəstə çarpayısında uzanmış, əsl mənada can üstündə olan, çan vuruşduran qadın idi. Adil kövrəlmiş, gözləri dolmuş halda deyirdi:

- Görürsən də... Çox əziyyət çəkir...
- Darıxmayın... Səbrli olun. Allah varsa, rəhmi də var.

Qadına razılıq ərizəsinə imza etdirib, otaqdan çıxanda ona Allahdan şəfa dilədi. Ağ tül yorğan-döşəkdə uzanmış evin xanımı sanki bir anlığa dirçələn kimi olub dilləndi:

- Çox sağ olun, qardaş...

Adil kişi, oğlanları, gəlini onun danışdığını görüb xoşhal oldular. Ona razılıq etdilər. Gülümsədi:

- Yaxşı olar, inşallah. Ayağım düşərlidi də.
- Təki belə olsun.

Həyat belədi də. Həmin əməliyyatdan, xəstəlikdən sonra qadın dirçəlib ayaqüstə qalxdığını eşitdi. Buna çox sevindi. Ancaq bir müddət sonra Adil kişi haqqında eşitdiyi bəd xəbər onu sarsıtdı. Qəflətən dünyasını dəyişmişdi...

Onun hüzur yerində olanda ağrılı anlar yaşadı. İşi, vaxtı imkan verməsə də, arada iştirak etməyi özünə borc bildi, oğlanları ilə görüşüb təsəlli verdi, səbrli olmalarını tövsiyə etdi:

- Şükür İlahinin məsləhətinə. Yaxşısını Allah bilir. Ancaq o başqa kişi idi. Şəxsən mən onu həmişə xeyirxah bir insan kimi xatırlayacağam.
- Çox sağ olun, müəllim. Allah sizdən razı olsun, əziyyət çəkmisiniz.
- Nə əziyyəti var. Belə insanların yasında iştirak etmək borcumuzdu. Qəbri nurla dolsun. Cənnət-məkan olsun. Belələrinin yeri ancaq oradı. Oruc tutub, namaz qılmaqla deyil ki... Xeyirxahlıq başqa şeydi. İnsanlara dar gündə əl tutmaq, kömək olmaq Allaha da xoşdu... Belə əməllər mükafatsız qalmaz və qalmamalıdır...

İli çıxandan sonra onun yanına gəlmişdilər. Vərəsəlik işi açdırıb, evi adlarına keçirtmək üçün. Əslində bu tikili mənzil kimi gedirdi. Birmərtəbəli tikili idi. Həmin anlar da Adil kişidən, onun xeyirxahlığından söhbət saldı. Nə qədər gözlənilməz olsa da, artıq o yox idi. Xəstə, ağır yataqda olan həyat yoldaşı Sona burada idi, sağalmış, yaşayırdı. Bu barədə söhbət salaraq dedi:

- Kaş bütün kişilər belə olaydı. Ailəcanlı, ömür-gün yoldaşına sədaqətli...

Qadının bir andaca gözləri doldu:

- Çox sağ olun, qardaş, - dedi: - Allah sizdən razı olsun. O, həqiqətdən də belə ev sahibi, ata, canıyanan idi. Elə bizi kimi yaxına, qohuma-əqrəbəyə də...

Xeyli müddət sonra böyük oğlu ilə həyat yoldaşı notariat kontoruna gəlmişdilər. Hərbi məktəbə gedəcək oğlanlarına razılıq ərizəsi təsdiq etdirəcəkdilər. Dedi:

- Elə kişinin belə nəvəsi olacaq da. Hərbçi olmaq istəyir. Çox sağ olsun. Allah işini avand eləsin.

Söhbət zamanı yenə də söhbət Adil kişidən, onun xeyirxahlığından düşdü. Onun ölüm səhnəsi ilə maraqlandı. Bu barədə müəyyən şayiələr də vardı. Guya ki, QAİ işçisi kobudluq etmiş, onun ürəyi dözməmişdi. Oğlu dedi:

- Müəllim, inanın... Özüm orada maşında idim də. Düzdü, qardaşım yol hərəkət qaydasını pozdu, lazım olmayan yerdə ötmə əməliyyatı aparmaq istədi. "QAİ" işçiləri maşını saxlayıb, protokol yazmağa başlayanda... Biri qoymadı. Dedi ki, tanımamışıq, yoxsa bu kişinin maşınını saxlamazdıq. Atam dedi ki, mən sizin nə vaxt hörmətinizi etməmişəm?.. QAİ işçisi dedi ki, ancaq bu dəfə iki yox, üç nəfərik... Biri də maşında əyləşib... Atam dedi: "Olun da... Yenə də hörmətinizi edəcəyəm..." Elə bu sözləri deyib əlini cibinə tərəf apardı... Daha bilmədim ki, əlini pul çıxartmaq üçün apardı, yoxsa ürəyi sancdı... Elə oradaca dünyasını dəyişdi...

Bu an onun gözəl-göyçək həyat yoldaşı özünü saxlaya bilməyib kövrəldi... Elə o da... Ancaq yenə də cəld özünü ələ alıb, onlara təsəlli verməyə çalışdı:

- Bax, dünyanın bu işləri olmaya da... Adil müəllim kimi insanlar üçün belə işlərə dözmək çox çətindi. Əgər o protokol yazılmalıydı, yazaydılar da. Siz də cəriməni aparıb ödəyəydiniz. Daha yoxsa yolun ortasında haqq-hesab aparmaq, məsələni çürütmək?!. Belə hərəkətlər polisə yaraşmır axı!..
- İnanın, onlar kobudluq etmədilər... Atamla, bizimlə çox mehriban rəftar etdilər...

Ciddiləşdi, kövrək bir səslə dilləndi:

- Söhbət heç bundan, sizdən getmir. Hadisəyə ictimai münasibət, camaat baxışı var axı... İndi kimi inandıra bilərsən ki, polis işçilərinin təqsiri olmayıb?!. Olub axı... Bərkə düşsəydi siz onlara qarşı cinayət işi, mülki iddia qaldırılmasını da tələb edə bilərdiniz. Artıq tamahlıq deyil, bəs nədir?! İki deyilik, üçük!.. Biri də maşında əyləşib!.. Gözümüz aydın!..

Kaş yolda beləsi mənə rast gələ, qanun-qaydadan kənar işlər görə, nəsə tələb edə də!.. Atalarını yandıraram!.. On üç il o "QAZ-31" bizdə oldu... Yalnız bir dəfə, toy günü uşaqlar Sumqayıta gül almağ gedəndə cərimə veriblər. İki şirvan... Özüm maşında olanda həmişə qayda-qanunu onlara öyrətmişəm, əməl ediblər. Heç kimin də onlarla işi olmayıb...